*Hamlet İsaxanlı*

# Yaxşı nədir, pis nədir?

## Ali təhsilin inkişafı və ali məktəblərin keyfiyyət göstəriciləri haqqında



*Müasir dünyada ali məktəblər ağır rəqabətə, bəzən qlobal rəqabətə davam gətirmək məcburiyyəti qarşısında qalırlar. Bu zaman yeganə çıxış yolu özünü digərlərindən fərqləndirmək, daha yaxşı, daha güclü olduğunu sübuta yetirməkdən ibarətdir. "Yaxşı nədir, pis nədir" suallarına cavabı keyfiyyətdə axtarmaq lazımdır.*

(Əvvəli jurnalımızın 166 və 167-ci nömrələrində)

### Akkreditasiyanın əhəmiyyəti

İnkişaf etmiş ölkələrdə ali təhsil ocaqlarına dövlət büdcəsindən ayırmalar azaldıqca (ABŞ-da bu azalma 1992-ci ildən başladı) və rəqabət güclətdikcə ali məktəblər öz məqsəd və vəzifələrinə bir daha nəzər salır, inkişaf planlarını təftiş edir, akademik keyfiyyətin təminatı üçün yeni formalar axtarırlar. İnkişaf etmiş və inkişafda olan ölkələrin böyük əksəriyyətində rəqabətin təzyiqi altında aparılan bu axtarış, əsasən, Birləşmiş Ştatlarda tətbiq olunan forma və ideyaları mənimsəmək meyllərini nümayiş etdirir. Bir daha qeyd edək ki, *səviyyəli ali məktəblər bölgədə deyil, beynəlxalq miqyasda gedən qlobal yarış və rəqabət içərisindədir*.

Hazırda Avropada *Bolonya* (Bologna, İtaliya) *prosesi* adlanan və *vahid Avropa təhsil məkanı* yaratmaq uğrunda atılan addımlar da (bu ayrı bir mövzudur) Amerikan ali təhsil modelinin avropalılar üçün, ideal olmasa da, bir nümunə olduğunu göstərir.

ABŞ-da regional akkreditasiyanın əhəmiyyəti çox böyükdür. Akkreditasiya almış ali məktəbin və onun tələbələrinin federal qrant, müqavilələr və maliyyə yardımı almaq üçün müraciət etmək, eləcə də müxtəlif fondların yardım proqramlarında iştirak etmək haqqı olur. Bakalavr dərəcəsi almış tələbələrin daha yüksək dərəcə verən proqramlara daxil olması üçün də onların akkreditə olunmuş ali məktəbdən məzun

olması şərtdir. Beləliklə, ali məktəblər regional akkreditə olunmadan fəaliyyət göstərə bilsələr də ( ümumi fəaliyyət üçün akkreditə olunub-olunmamaq mənasında heç bir qadağa yoxdur), ümumamerika ali təhsil sistemində tam iştirak etmək üçün akkreditə olunmaq zəruridir. Digər tərəfdən, bir sıra tətbiqi sahələrdə (tibb, hüquq, mühəndislik, müəllimlik və s.) yalnız ixtisaslaşmış, peşəkar assosiasiyaların akkreditə etdiyi proqramları bitirənlər öz peşələri üzrə praktik fəaliyyət üçün lisenziya istəyə bilərlər. ABŞ-da akkreditə hərəkatının əhəmiyyətini və çox geniş vüsət aldığını nəzərə alaraq müstəqil akkreditasiya agentliklərinin qurulması prosesini tənzimləyən, onları "tanımaq" funksiyasını öz üzərinə götürən qurum da mövcuddur: *Ali təhsil akkreditasiya şurası* (Council of Higher Education Accreditation). Birləşmiş Ştatlar təhsil departmenti isə akkreditəyə qarışmadan akkreditə edən qurumlara və akkreditə olunmuş ali məktəblərə federal maliyyə yardımı ayrılması məsələsini tənzimləyir.

## Keyfiyyət uğrunda.
## Sovetlər, Amerika, Avropa

Amerika Avropanı nümunə götürərək, Avropadan öyrənərək öz ali məktəblərini qurdu (baxmayaraq ki, 1862-ci ildən başlayaraq Amerika ali təhsil sistemində Avropaya xas olmayan və yüksək inkişafa böyük kömək olan fərqli addımlar da atılmağa başlandı). Keyfiyyəti ölçmə və akkreditasiya məsələlərində isə Avropa Amerikanın qazandığı təcrübədən faydalanmağa çalışdı. 1952-ci ildə Hamburqda (Almaniya) yaradılmış UNESCO təhsil institutu bu işdə mühüm rol oynadı.

1957-ci ildə 1-ci Sovet sputniki orbitə çıxarıldıqdan sonra Qərb ölkələrində və xüsusilə ABŞ-da təhsilin keyfiyyəti barədə müzakirələr həm elmi, həm siyasi baxımdan yeni böyük vüsət aldı. Sovet uğurlarının əsas səbəbi olaraq riyaziyyat və təbiət elmlərinin tədrisində Sovet orta məktəblərinin üstün olması göstərildi (ali məktəblər deyil!). Nəticədə ABŞ-da tədris planları və fənn proqramlarında, tədris üsullarında bilik-bacarıq standartlarının araşdırılması və tətbiqinə yönələn çox işlər görüldü. Bu işi 1958-ci ildə *Milli müdafiə təhsil aktı* (National Defense Education Act of 1958) kimi qərarla qanunilәşdirdilər.

Bir qədər sonra Parisdə qərarlaşan *Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı* (Organization for Economic Cooperation and Development) bu işə qoşuldu. 1959-61-ci illərdə Qərb ölkələrindəki təhsil sistemlərini geniş və müqayisəli şəkildə dəyərləndirmək üçün maraqlı bir pilot layihə həyata keçirildi. 12 ölkədə riyaziyyat, təbiət elmləri və oxuyub qavramaq üzrə 13 yaşlı şagirdlər arasında testlər tətbiq edildi. Həmin test materialları iştirakçı ölkələrin doğma dillərinə (8 dilə) tərcümə edildi. Ümumiyyətlə, Sovet uğurlarının Birləşmiş Ştatları və Qərbi Avropanı silkələməsi *Qərbdə yeni təhsil erasının başlanğıcı* oldu.

## Ali təhsildə keyfiyyətin ölçülməsi.
## Böyük Britaniya təcrübəsi

Birləşmiş Krallıqlarda (başqa sözlə, Böyük Britaniyada) 1990-cı illərdə ali təhsildə keyfiyyətin müəyyən edilməsi istiqamətində

təşkilatlanma başlandı. Ümumiyyətlə, bu ölkə ali təhsildə keyfiyyətə nəzarət sahəsində Avropada ən çox iş görmüş, ən təcrübəli ölkə sayılır. Uğurlar da, mübahisəli məsələlər də kifayət qədərdir. 1992-ci ildə İngiltərə, Şotlandiya və Uels üzrə maliyyələşdirmə Şuraları yaradıldı. Onların əsas vəzifəsi dövlətin maliyyələşdirdiyi ali məktəblərdə keyfiyyətin ölçülməsi idi. İngiltərədə bu qurum *«İngiltərə üzrə ali təhsili maliyyələşdirmə Şurası»* (The Higher Education Funding Council for England-HEFCE) adlandırıldı. Bu Şura ixtisaslaşma üzrə tədris planlarını və fənləri araşdırmaq yolu ilə keyfiyyəti ölçməyə məsul oldu, başqa sözlə desək, akademik departmentləri (kafedraları), proqramları təftiş edərək ixtisaslaşmış/peşəkar akkreditə ilə məşğul olmağa başladı. Qiymətləndirmənin nəticəsi üç cür ola bilərdi: əla, məqbul (kafi) və qeyri-məqbul (qeyri-kafi). Digər tərəfdən, ali məktəb rəhbərləri *Ali təhsil keyfiyyət şurası* (Higher Education Quality Council-HEQC) adlanan və ali məktəblərdə keyfiyyəti müəyyən standartlar üzrə bütövlükdə dəyərləndirən qurumu yaratdılar. Beləliklə, İngiltərədə (eləcə də Şotlandiya və Uelsdə) ali məktəblərin keyfiyyət ölçülərini müəyyən edən biri müstəqil, digəri isə təşkilati baxımdan dövlət nəzarətində olan (amma sərbəst fəaliyyət göstərən) və bir-birini tamamlayan iki qurum meydana gəldi. Öz növbəsində dövlət tərəfindən maliyyə ayırmalarının şəffaflığı və ciddi əsasa dayanması da təmin olundu.

Eyni zamanda ali məktəblərdə keyfiyyətin müstəqilliklə sıx əlaqəsi olduğu da vurğulandı və binar sistem, yəni universitələr və politexnik institutların paralel varlığı aradan qaldırıldı, politexniklər universitəyə çevrildilər. Beləliklə, *istisnasız bütün ali məktəblər öz diplomlarını özləri verməyə başladılar* (əvvəllər politexniklərə diplomlar *Milli Akademik Təltiflər Şurası* adlanan qurum tərəfindən verilirdi).

Bizdə ali məktəb diplomlarının vahid formada hökumət, yəni təhsil nazirliyi tərəfindən verilməsi az qala müqəddəs, dövlət əhəmiyyətli bir iş hesab olunur. Əslində isə bütün diplomların (bakalavr, magistr, doktor və s.) arxasında həm məzmun, həm forma baxımından ali məktəbin öz nüfuzu və öz dəstxətti dayanmalıdır. İnkişaf etmiş ölkələrdə belədir, biz inkişaf etməmiş hesab olunuruqsa, bu halda sürətli inkişafa ehtiyacı olan birinci sahə yəqin ki, məhz təhsil sistemimiz olmalıdır.

*Müasir dünyamızda ali məktəbin müstəqilliyi və şəffaflığı - ikisi bir yerdə keyfiyyətin təməli sayılır.* Onu da qeyd edək ki, akademik əksəriyyətin fikrinə görə *keyfiyyətli ali məktəblərin sayı baxımından Birləşmiş Ştatlardan sonra Birləşmiş Krallıqlar gəlir.*

Maraq üçün qeyd edək ki, HEFCE-nin 1992 və 1995-ci illər arasında apardığı 912 dəyələndirmədə 249 proqram, yəni 26% əla, 711 proqram, yəni 73% məqbul və yalnız 12 proqram, yəni 1% qeyri-məqbul qiymət almışdı. 1994-cü ildə uyğun olaraq bütövlüklə və ixtisaslaşmış dəyərləndirmə aparan iki qurumu birləşdirib, keyfiyyəti hərtərəfli ölçə bilən yeni daha çevik və müstəqil agentlik yaratmaq qərara alındı. 90-cı illərin sonlarında bir sıra digər Avropa ölkələrində də bu iki sahəni kombinə edən, birləşdirməyə cəhd edən meyllər artdı.

1997-cı ildə *Keyfiyyət təminatı aqentliyi* (Quality Assurance Agensy - QAA) əvvəlcə hər iki istiqamətdə dəyərləndirməyə başlasa da, çox tənqidlərə məruz qaldıqdan sonra 2002-ci ildən başlayaraq yalnız umumi qurum auditi ilə məşqul olmağı davam etdirdi. Akademik proqramlara isə ancaq çox zəruri olduqda müraciət etməyi qərara aldı.

Digər tərəfdən HEFCE hər beş ildən bir *Tədqiqat dəyərləndirilmə çalışmaları* üzərində də dayandı. Bu, hər sahə üzrə universitənin tədqiqat gücünü və uyğun olaraq maliyyələşdirməni müəyyən etmək məqsədi güdür. Bu güc 1-dən 5-ə kimi qiymətləndirilir, 1 və 2 alan sahələrə tədqiqat maliyyələşdirməsi ayrılmır, 5 alan sahənin maliyyəsi 3 alandan dörd dəfə çox olur!

## Ali məktəblərin Karneqi təsnifatı

Əslinə qalsa, ABŞ-da (bir sıra başqa ölkələrdə də) akkreditasiya üçün müəyyən edilmiş minimum standartlar çox yüksək deyil. Bu səbəbdən güclü ali məktəblərlə yanaşı bir sıra nisbətən zəif kollec və universitələr də akkreditasiyadan keçə bilirlər. Bu ümumi standartların çox yüksək olması da doğru deyil, onlar çox əhatəli və ciddi olduqca ali məktəbləri bir-birinə yaxınlaşdırmaq, fərqləri yoxa çıxarmaq və nəticədə *təhsil mühitini qəlibə salmaq, beləliklə də yoxsullaşdırmaq təhlükəsi* artır. Onsuz da mərkəzləşdirilmiş təhsil siyasəti olmayan ABŞ-da ali məktəblər bir-birindən məqsəd, hədəf və vəzifələrinə görə, tələbə və müəllimlərinə görə... böyük dərəcədə fərqlənə bilirlər. Və onların hamısına eyni ölçüləri tətbiq etmək, onlara eyni gözlə baxmaq doğru görünmür. Bunları nəzərə alan *Ali təhsil üzrə Karneqi Komissiyası* (the Carnegie Commission on Higher Education) 1970-ci illərin əvvəllərində ali *məktəblərin Karneqi təsnifatı* üzrə işə başladı. 1973-cü ildə ali məktəblərin bu təsnifata uyğun tam siyahısı dərc edildi. Bu təsnifatın məhz tədqiqat məqsədi üçün inkişaf etdirildiyini qeyd etmək lazımdır, bu, qətiyyən güc sıralaması (reytinq) müəyyən etmək və ya ali məktəbləri bir birinə yaxınlaşdırmaq siyasətinə kömək etmək məqsədi güdmürdü.

Bu günə qədər təsnifat nəticələri beş dəfə - 1973, 1976, 1987, 1994 və 2000-ci illərdə nəşr olunub. Hazırda Tədrisin inkişafı üzrə Karneqi fondu (The Carnegie Foundation for the Advancement of Teaching) yeni daha dəqiq prinsiplərə əsaslanan və ali məktəblərin oxşarlığına və fərqlərinə daha dərindən nüfuz edə bilən çoxqatlı, çoxşaxəli təsnifat sistemi üzərində çalışır və 2005-ci ildə nəticələri elan edəcəyini bildirir. Biz isə bu nüfuzlu təsnifatın yeniləşmiş və dəqiqləşmiş son 2000-ci il nəşri üzərində dayanacağıq. Bu nəşr və təsnifat ali məktəblərin üç illik (1995-96, 1996-97, 1997-98) fəaliyyətinə əsaslanır.

Beləliklə, Birləşmiş Ştatlarda fəaliyyət göstərən və akkreditə olunmuş ali məktəblər 6 sinfə, kateqoriyaya ayrılır. Bunlar aşağıdakılardır:

Doktorluq / Tədqiqat Universitələri; adətən bir çox sahələrdə bakalavr proqramları var, amma onlar yüksək dərəcəli proqramlara, tədqiqat səciyyəli təhsilə (xüsusilə doktorluğa PhD proqramlarına) üstün sahə kimi baxırlar. Bu kateqoriyanın özü iki hissədən ibarətdir. Geniş (Extensive): Baxılan (3 illik) dövrdə ən azı 15 sahə üzrə 50-dən az olmayaraq doktorluq dərəcəsi verilmişdir. Dar və ya intensiv (Intensive): Baxılan dövrdə ən azı üç sahədə ildə ən azı 10 doktorluq dərəcəsi verilib.

Magistr (Master) Kollecləri və Universitələri; adətən bir çox sahələrdə bakalavr proqramları var, amma magistr (master) dərəcəli proqramları inkişaf etdirmək də mühüm hesab edilir. Bu kateqoriya da iki hissəyə ayrılır: 1. Baxılan dövrdə ən azı üç sahə

üzrə ildə ən azı 40 magistr dərəcəsi verilib. 2.Baxılan dövrdə ildə ən azı 20 magistr dərəcəsi verilib.

Bakalavrlıq kollecləri əsasən bakalavr və daha aşağı dərəcələr üzrə fəaliyyət göstərir. Bu kateqoriya özü üç sinfə ayrılır:

Liberal sənətlər üzrə Bakalavrlıq kollecləri; əsas fəaliyyəti bakalavrlıqdır və baxılan dövrdə bakalavrlıq dərəcəsinin ən azı yarısı liberal sənətlər üzrə verilib. Birləşmiş Ştatlarda liberal sənətlər (liberal arts) dillər və ədəbiyyatlar, fəlsəfə, tarix, humanitar elmlər, riyaziyyat, təbiət elmləri, mədəniyyət və incəsənət kimi sahələri özündə birləşdirir (Sovet dövrü universitetləri, məsələn, o zamankı Azərbaycan, indiki Bakı Dövlət Universitəsi Amerikan mənada liberal sənətlər fakultəsi üstəgəl hüquq fakültəsi deməkdir).

Ümumi Bakalavrlıq kollecləri; baxılan dövrdə verilmiş bakalavr dərəcələrinin yarıdan azı liberal sənətlər üzrədir.

Assosiativ/Bakalavrlıq Kollecləri; baxılan dövrdə əsasən bakalvr dərəcəsindən aşağı, əsasən iki illik olan assosiativ dərəcə proqramları ilə məşğul olunub. Amma bitirənlərdən ən azı on faizi bakalavr dərəcəsi üzrədir.

Assosiativ Kolleclər; əsasən assosiativ dərəcə (həcmcə bakalavr proqramının yarısını təşkil edir) və sertifikat proqramları ilə məşğul olur, yalnız bəzi istisnalarla az sayda bakalavr proqramı ola bilər. Baxılan dövrdə bakalavr dərəcəsi alanlar ümumi məzunların on faizindən az olmuşdur. ( Bu qrupdakı kolleclərə community, junior, technical colleges adlananlar daxildir).

Yuxarıdakı dörd kateqoriyaya daxil edilən ali məktəblərin təsnifatında üstün hesab olunan sahələr göstərilməklə yanaşı bu üstünlüyü rəqəmlərin dili ilə nümayiş etdirmək də təsnifatın zəruri ünsürlərindəndir.

İxtisaslaşmış institutlar; bakalavrlıqdan başlamış doktorluğa qədər bütün dərəcələr var, ancaq bunların böyük əksəriyyəti bir sahə üzrədir. Buraya müxtəlif dini institutlar, tibb və səhiyyə (health) üzrə ixtisaslaşanlar, mühəndislik və texnologiya, biznes və menecment, hüquq, müəllimlik və incəsənət, musiqi və dizayn, hərbi və s. institut, kollec, məktəb, mərkəzlər daxildir.

Qəbilə Kollec və Universitələri; bunlar cüzi istisnalarla Amerikan hindu qəbilələrinin nəzarətindədir və rezervasiyalarda yerləşir. Əslində bu, sonuncu kateqoriya Amerika təhsil sistemində həm sayca, həm əhəmiyyətinə görə çox yer tutmur və o, zənnimizcə, əvvəl sadalanan kateqoriyalar arasında paylanaraq xüsusi sinif kimi ayrılmaya da bilərdi.

Bu məlumatın müəyyən tamlığı üçün qeyd edək ki, 2000-ci il Karneqi təsnifatında 3,941 ali təhsil ocağı (58.4%-i özəl) öyrənilmişdir ki, bunların 261-i və ya 6.6%-i doktorluq/tədqiqat universitələri (36.4%-i özəl), 611-i və ya 15.5%-i Magistr Kollec və Universitələri (55.5%-i özəl), 606-ı və ya 15.4%-i Bakalavrlıq kollecləri (84.9%-i özəl), 1.669-u və ya 42.3%-i Assosiativ Kolleclər (38.6%-i özəl), 766-sı və ya 19.4%-i ixtisaslaşmış institutlar (91.2%-i özəl) və 28-i, və ya 0.7%-i Qəbilə Kollec və Universitələrindən (21.4%-i özəl) ibarətdir.

**(ardı var)**